# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 3 (185) 309
iyun-iyul 2023-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti




*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.*

**Heydər Əliyev**

# Şuşa Bəyannaməsi tarixi əhəmiyyət daşıyır

**“Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanmasından 2 il ötür. Böyük tarixi əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə qardaşlığının bütün dünyaya çatdırılan mesajıdır.**



Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanan Bəyannamə iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoydu.

Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərinin geostrateji əhəmiyyətini artırmaqla ölkələrimiz arasındakı əlaqələrin bütün müstəvilərdə davamlı inkişafını təmin etdi.

Bəyannamə Türkiyə və Azərbaycan arasındakı müttəfiqlik münasibətlərinin bütün əməkdaşlıq sahələrini əhatə edir. İki qardaş ölkə ərazisində siyasət, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələri əhatə edən Bəyannamə bölgədə sülhə və inteqrasiyaya yol açır, əraziyə yeni sərmayə qoyuluşu prosesini stimullaşdırır. Regionun artan investisiya potensialı yeni iqtisadi münasibətlərin formalaşmasına səbəb olacaq ki, bu da Şuşa və Şuşa ətrafında gözəl turizm imkanlarının açılmasına təsir göstərəcək.

Bəyannamədə nəzərdə tutulan hərbi əməkdaşlıq, regional əhəmiyyət daşıyan iqtisadi layihələr və bütün digər müstəviləri əhatə edən təşəbbüslər ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu artırır, strateji əməkdaşlığın perspektivini təmin edir, ölkələr arasında münasibətlərin gələcəyini müəyyən əməklə əlaqələri ən yüksək səviyyəyə qaldırır. Şuşa Bəyannaməsinin icrası keyfiyyətcə daha yüksək iş birliyinin təminatıdır.

Bəyannamədə xalqlarımızın böyük liderləri Mustafa Kamal Atatürk və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”. XX əsrin sonlarında isə Ulu Öndər Heydər Əliyev demişdir: “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir”.

Vətən müharibəsində olduğu kimi, işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işlərində də Azərbaycan ilə Türkiyə arasında sıx əməkdaşlıq mövcuddur. Ölkəmizin Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi əhəmiyyətə malikdir. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaqdır. Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi reallığa çevrilir. Zəngəzur geosiyasi əhəmiyyətə malik olan nəqliyyat layihəsidir.

Bəyannamədə əksini tapan və iqtisadi inkişafa təkan verəcək məsələlərdən biri də ölkələrin qarşılıqlı surətdə investisiya qoyuluşlarını həyata keçirməsindən, habelə bu sahədə strateji məqsədlərin olmasından ibarətdir. Qarşılıqlı investisiya qoyuluşları ölkələrin iqtisadiyyatının sürətli inkişaf etməsinə, zəruri sahələrin genişləndirilməsinə, strateji sahələrin daha da təkmilləşdirilməsinə şərait yaradır, inteqrasiyanı dərinləşdirir.

İqtisadi əməkdaşlıq sahəsində perspektivlərin daha ümidverici olmasını sübut edən amillərdən biri də Türkiyə dövlətinin Şuşa şəhərində konsulluq açması ilə bağlıdır. Bu, hər iki ölkə vətəndaşlarının, iş adamlarının Azərbaycanda, xüsusən də Qarabağ zonasında daha geniş fəaliyyət göstərəcəklərinə bir işarədir. Bu, eyni zamanda, işğaldan azad edilən rayonların qısa müddət ərzində dirçəldilə biləcəyindən xəbər verir. Şuşada konsulluğun açılmasının iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi və mənəvi tərəfi də var. Bu, Qarabağda Türkiyənin varlığı deməkdir. Eyni zamanda, bütün dünyaya verilən siyasi, diplomatik bir mesajdır.

Şuşa Bəyannaməsində müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin öz əksini tapması hər iki ölkə üçün tarixi nailiyyətdir. Ölkələr bundan sonra da bir-birinin təhlükəsizliyini təmin edəcək. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini artıracaqdır.

İkinci Qarabağ müharibəsində pilotsuz uçuş aparatları böyük rol oynayıblar. Azərbaycan bu prosesdə istehsal mərkəzi kimi inkişaf edəcəkdir. İki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, silahlı qüvvələrin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılığa gəliblər.

Bəyannamə imzalanarkən, Azərbaycan Prezidenti İlham Əliyev Şuşa Bəyannaməsinin imzalanması tarixinin rəmzi mənası olduğunu vurğulayaraq deyib: “Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır”.

Qürurverici bir faktdır ki, Şuşa Bəyannaməsi ilə Türkiyə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi şəraitində öz ordusu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə açıq-aydın şəkildə çatdırır.

Bəyannamədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşməsinə, regional inteqrasiyaya və təhlükəsizliyə xidmət edir, eyni zamanda, Azərbaycanın və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir.

Bu tarixi sənədin ortaya qoyduğu mühüm məsələlərdən biri də xaricdə yaşayan türk və Azərbaycan icmaları arasında informasiya mübadiləsini artırmaq və diplomatik səyləri birləşdirməkdir. Beynəlxalq aləmdə daha səmərəli fəaliyyət göstərmək istiqamətində media platforması və diaspor sferasında birgə, qarşılıqlı əlaqələrin genişləndirilməsinə, strateji məsələlər üzrə birgə qərarların qəbul edilməsi və icra edilməsinə, qarşılıqlı maraq doğuran bütün məsələlər üzrə həmrəyliyin təmin edilməsinə zərurət yaranıb.

***“XIZI”, R.M.***

# Müasir Azərbaycan Ordusunun hərbi qüdrətindən bütün dünya xəbərdardır

## *Müstəqil Azərbaycanda ordu quruculuğu*



***Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda ordu quruculuğu istiqamətində mühüm addımlar atıldı. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi.***

Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə böyük diqqət yetirildi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Sərəncamına əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin dövründə 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında Fərman imzalamışdır. Akademiyanın təsis olunması hərb sahəsində milli kadr ehtiyatının formalaşdırılması prosesinin keyfiyyət etibarı ilə yeni inkişaf mərhələsi sayıla bilər. 2001-ci il 20 avqust tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmış və bununla həmin təhsil ocaqlarının respublika üzrə hərbi təhsil müəssisələri sistemində statusu yüksəldilmişdir.

1990-cı illərin ortalarından başlayaraq, Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər.

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Silahlı Qüvvələri bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Məhz bu uğurlu siyasət nəticəsində Müdafiə Sənayesi Nazirliyində 400-dən çox müdafiə təyinatlı məmulatın istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biridir. Bu, Azərbaycana öz ordusunu zəruri silah-sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir.



Azərbaycanın hərbi qüdrətinin artırılması dövlət siyasətinin prioritetidir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Silahlı qüvvələrin daha da modernləşdirilməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsi Prezident İlham Əliyevin siyasətinin strateji istiqamətlərindəndir.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə MDB məkanında ön sıralardadır. Ötən 20 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan modernləşmə islahatları və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərinə ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda şahid olublar. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Silahlı Qüvvələri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir.

Qürurverici haldır ki, Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Silahlı Qüvvələrimizi əhəmiyyətli dərəcədə təchiz edə bilir. Bundan əlavə, hazırkı dövrdə silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri də genişləndirilir.

Azərbaycanın ərazi bütövlüyünün pozulması və Ermənistanın işğalçı siyasətinin dünyada tanıdılması istiqamətində uğurlu diplomatik iş aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il 27 sentyabrda başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Qarabağ kimi çox çətin problemi həll edərək Ermənistanı, dünyadakı erməni diasporunu və onların havadarlarını diz üstə çökdürərək reallığı qəbul etməyə məcbur etdi - işğala son qoyuldu. Müzəffər Ali Baş Komandan bununla tarixi ədaləti bərpa etdi. Ermənistan üzərində parlaq qələbə əldə etməsi, həm də onun hakimiyyətə gəlişindən sonra apardığı praqmatik, sistemli siyasi kursun və uzaqgörən xarici diplomatiyanın bəhrəsi idi.

Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusunun Qələbə salnaməsi daim xalqın yaddaşında yaşayacaqdır. Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd, həmçinin Kəlbəcər, Ağdam və Laçın azad edildi. Bütövlükdə 300-dən çox yaşayış məntəqəsi düşməndən təmizləndi. Düşmən ordumuzun gücü qarşısında geri çəkilərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. 44 gün ərzində müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan böyük təzyiqlərin, təhdidlərin olmasına rəğmən, Azərbaycan zəfər çaldı. Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəni böyük qürur hissi ilə qeyd etdi.

Bu möhtəşəm Qələbə Xalq-Ordu Birliyi sayəsində qazanılmış tarixi qələbədir. "Dəmir yumruq" birliyimizin rəmzidir. Azərbaycan xalqı yumruq kimi birləşib. Bu birlik əbədi olacaq. Bu birlik gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Dövlətin gücü Azərbaycan xalqının dəstəyindədir.

Son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan Ordusu 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Məsələyə birdəfəlik nida işarəsi vurdu:

**QARABAĞ AZƏRBAYCANDIR!**

***"XIZI"***

# Dövlət qulluqçuları bayram əhval-ruhiyyəsində

***Sürətlə inkişaf edən Azərbaycanın beynəlxalq aləmdə öz nüfuzunu möhkəmləndirməsi Ümummilli Lider Heydər Əliyevin dövlət idarəetmə sistemində həyata keçirdiyi islahatlardan qaynaqlanıb. 2000-ci ilin 21 iyununda Ulu Öndərin təşəbbüsü ilə hazırlanan Azərbaycan Respublikasında "Dövlət Qulluğu haqqında" Qanunun qəbul edilməsi ölkəmizdə dövlət qulluğunun dövrün, zamanın tələblərinə uyğun qurulması üçün bir növ hüquqi baza oldu. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycanda mütərəqqi dövlət idarəçilik sistemi Prezident İlham Əliyev tərəfindən yüksək siyasi peşəkarlıqla davam etdirilir.***



Dövlət başçısı BMT Baş Məclisi tərəfindən iyunun 23-nün BMT-nin Dövlət Qulluğu Günü elan edilməsini, eləcə də dövlət qulluğunun demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolunu nəzərə alaraq 25 may 2006-cı il tarixdə Azərbaycanda "Dövlət qulluqçularının peşə bayramı gününün qeyd edilməsi barədə" Sərəncam imzaladı. Bu Sərəncama əsasən hər il iyunun 23-ü ölkəmizdə "Dövlət qulluqçularının peşə bayramı" günü kimi qeyd edilir.

İyunun 23-də Xızı şəhərində "Dövlət qulluqçularının peşə bayramı" günü ilə əlaqədar tədbir keçirildi. Xızı Rayon İcra Hakimiyyətinin başçısı cənab Xəzər Aslanovun rəhbərliyi altında Xızı RİHBA-nın işçiləri Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər gül dəstələri düzdülər. Dahi rəhbərin xatirəsi dərin ehtiramla yad edildi.

Dövlət qulluqçuları qarşısında çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin başçısı cənab Xəzər Aslanov uğurlu idarəçiliyin səriştəli dövlət qulluğu əsasında qurulduğunu, dövlət idarəçiliyində, dövlətə rəhbərlikdə peşəkarlığın əhəmiyyətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çoxşaxəli, müdrik və səmərəli fəaliyyətində öz əksini tapdığını diqqətə çatdırdı.

Xəzər Aslanov daha sonra dövlət qulluğunda çalışanlara peşə bayramı münasibətilə səmimi təbriklərini ünvanlayaraq, onlara işlərində və gələcək fəaliyyətlərində uğurlar arzuladı.

***"XIZI", R.M.***
*23 iyun 2023-cü il*









# Xızıda "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda tədbir keçirilib

**"Xalqımızın Ümummilli Lideri Heydər Əliyev müasir müstəqil dövlətimizin memarı və qurucusu olmaqla yanaşı, həm də müzəffər Azərbaycan Ordusunun yaradıcısıdır."**

Bu fikirlər iyunun 24-də Xızı şəhərində "Heydər Əliyev İli" çərçivəsində "26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü" ilə əlaqədar keçirilən "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" adlı tədbirdə səslәndirilib.

Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil olunmuş tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin, YAP Xızı rayon təşkilatının, Xızı Rayon Gənclər və İdman İdarəsinin, Səfərbərlik və Hərbi xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xızı rayon bölməsinin, Sumqayıt Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin, o cümlədən digər idarə, müəssisə və təşkilatların əməkdaşları, Vətən müharibəsinin veteranları, qazilər, ziyalılar iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Giriş sözü ilə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov "26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü" münasibətilə tədbir iştirakçılarına rayon rəhbəri cənab Xəzər Aslanovun təbriklərini ünvanlayıb. Abdulla Hüseynov öz çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğuna da böyük diqqət yetirilib. Silahlı Qüvvələrimizin yaradılması, formalaşdırılması, qüvvətləndirilməsi, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən mütəşəkkil Azərbaycan Ordusunun təşkil olunması Heydər Əliyevin xalq və dövlət qarşısında ən böyük xidmətlərindən biridir.



Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən müdrik siyasət nəticəsində Azərbaycan Ordusunun daha da möhkəmləndiyini və döyüş qabiliyyətinin daha da artdığını vurğulayan natiq daha sonra vətənpərvər Azərbaycan gənclərinin Vətənin müdafiəsi və azadlığı uğrunda gedən döyüşlərdə göstərdikləri şücaət və qəhrəmanlığı yüksək dəyərləndirib.

Daha sonra tədbirdə Ulu Öndər Heydər Əliyevin milli zabit kadrlarının hazırlanması üçün mükəmməl hərbi təhsil sistemi formalaşdıraraq ordunun maddi-texniki təminatının yaxşılaşdırılması, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması, döyüş ruhunun yüksəldilməsi istiqamətində və ordu quruculuğu ilə bağlı apardığı genişmiqyaslı islahatlar, eləcə də 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə, şəhidlərimizin keçdiyi şərəfli döyüş yolları barədə çıxışlar dinlənilib.

Sonda Ümummilli Lider Heydər Əliyevin siyasət meydanı, o cümlədən ordu quruculuğu sahəsindəki qətiyyətli fəaliyyətindən, Zəfər tariximizdən bəhs edən geniş formatlı videoçarx nümayiş etdirilib.

***"XIZI", R.M.***
*24 iyun 2023-cü il*

# Ədliyyə naziri Xızıda vətəndaşları qəbul edib



**Ədliyyə Nazirliyi tərəfindən Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq iyulun 6-da Ədliyyə Nazirliyi tərəfindən Xızı rayonunda vətəndaşların səyyar qəbulu təşkil olunub.**

Ədliyyə naziri Fikrət Məmmədov Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində Xızı, Siyəzən və Şabran rayonlarında yaşayan vətəndaşları qəbul edib.

Əvvəlcə, ədliyyə naziri Fikrət Məmmədov və Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Ümummilli Lider Heydər Əliyevin abidəsinin ziyarət edərək, önünə tər gül dəstələri qoyublar, Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Daha sonra qəbul zamanı ədliyyə və məhkəmə fəaliyyəti, habelə digər müxtəlif məsələlər lə bağlı vətəndaş müraciətləri diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərə dair aidiyyatı məsul işçilərə müvafiq tapşırıqlar verilib.

Qəbulda şəhid ailələrinin və Vətən müharibəsi iştirakçılarının qayğılarına xüsusi diqqət və həssaslıqla yanaşılıb.

Səfər çərçivəsində ədliyyə naziri Fikrət Məmmədov yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə də tanış olub, hakimlər və ədliyyə işçiləri ilə görüşüb. Görüş zamanı nazir əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi sayəsində aparılan mütərəqqi məhkəmə-hüquq islahatlarından danışıb, qarşıda duran vəzifələr və işin səmərəliliyinin artırılması ilə əlaqədar aidiyyatı üzrə müvafiq tövsiyə və tapşırıqlarını verib.

Ədliyyə naziri Fikrət Məmmədov Xızı şəhərində olarkən Xızı Rayon Məhkəməsinin sabiq əməkdaşı, Vətən müharibəsində qəhrəmancasına vuruşaraq iki gözünü itirmiş və döyüş- lərdə göstərdiyi igidliyə, şücaətə görə Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", eləcə də "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmiş Kamran Baxşızadənin evinə gələrək özü və valideynləri ilə görüşüb, qayğıları ilə maraqlanıb, ona nazirlik tərəfindən göstərilən diqqətin daha da artırılması ilə bağlı məsul işçilərə əlavə tapşırıqlar verib.

Kamran Baxşızadə və ailə üzvləri göstərilən yüksək dövlət qayğısına görə Azərbaycan Prezidentinə minnətdarlıq bildiriblər.

*"XIZI",*
*06 iyul 2023-cü il*

**Qeyd:** Xülasədə Ədliyyə Nazirliyinin mətbuat xidmətinin məlumatlarına istinad edilmişdir.





# "Narkomanlığa birlikdə "YOX!" deyək!" mövzusunda tədbir keçirilib

**"Narkomaniya bütün dünyada yayılmış çox qorxulu bir bəladır. Narkomaniyaya yoluxanların arasında gənclərin daha çox üstünlük təşkil etməsi gələcək nəsli böyük təhlükə qarşısında qoyur. Bu ümumbəşəri bəlanın qarşısını almaq üçün hamı birlikdə mübarizə aparmalıdır."**

Bu fikirlər "26 İyun - Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar Xızı Rayon İcra Hakimiyyətinin, Xızı Rayon Polis Şöbəsinin, eləcə də Xızı Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Narkomanlığa birlikdə "YOX!" deyək!" devizi altında keçirilmiş tədbirdə səslənmişdir. Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil olunmuş tədbirdə Xızı RİHBA-nın rəsmiləri, Xızı Rayon Polis Şöbəsinin, Abşeron-Xızı Regional Təhsil İdarəsinin, Sumqayıt Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin, digər idarə, təşkilat və müəssisələrin əməkdaşları, fəal gənclər iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov açaraq, narkomaniyanın cəmiyyətin sağlam inkişafına, mənəviyyatına ağır zərbə vurmasından, narkotiklərin insan orqanizmi üçün zərərli nəticələrindən və onun törətdiyi fəsadlardan danışıb.

A.Hüseynov müasir dövrümüzdə cəmiyyətin ən çox rastlaşdığı və müzakirə etdiyi problemlərdən biri olan narkomaniyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə ölkəmizdə, o cümlədən Xızı rayonunda kompleks tədbirlərin mütəmadi olaraq həyata keçirildiyini və bu istiqamətdə təbliğat işlərinin genişləndirildiyini vurğulayıb.

Sonrakı çıxışlarda cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniyanın fəsadları və ona qarşı mübarizə üsullarından, xüsusilə valideyn və müəllimlərin gənc nəslin tərbiyəsindəki önəmli rolundan, eləcə də gənclərin idmana və faydalı vərdişlərə yönəldilməsinin, hüquq-mühafizə orqanlarının bu mübarizədə iştirakının əhəmiyyətindən bəhs edilib.

Sonda bəşəriyyətin ən qorxulu və təhlükəli bəlasına çevrilmiş narkomaniyanın insan həyatı üçün yaratdığı ağır fəsadlardan bəhs edən qısametrajlı film nümayiş etdirilib.

*"XIZI", R.M.*
*23 iyun 2023-cü il*

# "İnsan hüquqları" mövzusunda maarifləndirici tədbir təşkil olunub



**Ümummilli Lider Heydər Əliyev tərəfindən 18 iyun 1998-ci ildə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmiş və ölkəmizdə insan hüquqlarının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i resbublikamızda "İnsan Hüqüqlarının Müdafiəsi Günü" kimi qeyd edilir.**

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili tərəfindən 6 iyun 2023-cü il tarixində elan edilmiş "İnsan Hüquqları Aylığı" çərçivəsində Rafiq İsmayılov adına Xızı şəhər tam orta məktəbində yuxarı sinif şagirdləri ilə "İnsan hüquqları" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.

İyunun 16-da Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, eləcə də Xızı Rayon Polis Şöbəsinin və Abşeron-Xızı Regional Təhsil İdarəsinin dəstəyi ilə keçirilmiş tədbirdə insan hüquq və azadlıqları, hüquqpozmalar və onlardan müdafiə üsullarına dair geniş məruzələr dinlənilmiş, maarifləndirici videoslayd nümayiş etdirilmiş və tədbir iştirakçıları ilə söhbət-disputlar aparılmışdır.

*"XIZI", R.M.*
*16 iyun 2023-cü il*

***Xızı rayonunun ictimaiyyəti mənəvi ruhi birlik, həmrəylik, humanizm və mərhəmət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə bütün dünya müsəlmanlarını təbrik edir, bol-bol ruzi-bərəkət, firavan həyat, sülh, əmin-amanlıq, xoşbəxt və nurlu gələcək arzulayır.***

***Əziz müsəlmanlar! Həcc ziyarətinizi və kəsdiyiniz qurbanları Allah qəbul eləsin!***

# Şəhid ailələrinə, qazilərə, aztəminatlılara qurban payları, bayram sovqatları paylanıldı

**Bütün dünya müsəlmanlarının həmrəylik və qardaşlıq rəmzi olan Qurban bayramının ölkəmizdə dövlət səviyyəsində qeyd olunması xalqla dövlətin birliyini, Azərbaycan xalqının öz milli və dini ənənələrinə sadiq olduğunu dünyaya nümayiş etdirir.**

*"Azərbaycan xalqı həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşmış, dini mərasimləri, o cümlədən, Qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Bu günlər ölkəmizin hər yerində xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün Allaha dualar səslənir, Vətən uğrunda həyatından keçən şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, bu Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir. Ümidvaram, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır".*

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

İslamın humanizm, bərabərlik və qardaşlıq prinsiplərinə sədaqətini həmişə nümayiş etdirmiş Azərbaycan xalqı əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə belə Qurban bayramını özünün əziz günlərindən biri kimi qeyd etmişdir.

Qurban bayramında müsəlmanlar Allah yolunda hər bir fədakarlığa hazır olduqlarını nümayiş etdirdikləri kimi, Vətən müharibəsində də bütün Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən naminə canlarından keçməyə belə hazır olduqlarını göstərdilər. Bu, Azərbaycan xalqının böyüklüyünün və öz ali dəyərlərinə sadiqliyinin ən parlaq ifadəsi idi. Öz dərin tarixi kökünə, milli və dini dəyərlərinə sidq ürəkdən bağlı olan Azərbaycan anası, Azərbaycan atası öz övladının qanını və canını Vətən yolunda əsirgəmədi. Bu gün Azərbaycanı ərazi bütövlüyünə qovuşduran, ay-ulduzlu bayrağı əzəli torpaqlarımızda dalğalandıran da xalqımızın öz yaddaşında, gündəlik həyatında qoruyub saxladığı bu dəyərlərdir. Qurban bayramı Allah yolunda fədakarlığın, İkinci Qarabağ müharibəsi isə Vətən yolunda fədakarlığın təntənəsidir. Vətən müharibəsində qazanılan Zəfər xalqımızın qurbanlarının və dualarının qəbul olunduğunun göstəricisidir.

Müqəddəs Qurban bayramı münasibətilə Xızı Rayon İcra Hakimiyyəti tərəfindən Qarabağ müharibəsi əlillərinə, Vətən müharibəsi şəhidlərinin ailələrinə, qazilərə və aztəminatlı ailələrə bayram sovqatları paylanmışdır. Bayram payı alan şəhid ailələri, qazilər, aztəminatlı ailələr kəsilən qurbanların Allah tərəfindən qəbul olunmasını diləmiş, Qurban bayramının xalqımız üçün xeyirli-uğurlu olmasını, Azərbaycan Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya göstərdikləri diqqət və qayğıya görə səmimi təşəkkürlərini bildirmişlər.

***"XIZI", R.M.***
*29 iyun 2023-cü il*

# Azərbaycan Milli Mətbuatı 148 yaşını qeyd edir

**"Milli demokratik mətbuatın "Əkinçi" tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı".**

**HEYDƏR ƏLİYEV,**
**Ümummilli Lider**

**"Bu gün mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiə edilməsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamalıdır".**

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bəli, Azərbaycan milli mətbuatının yaranmasından artıq 148 il ötür. Yüz qırx səkkiz il bundan əvvəl - 1875-ci il iyulun 22-də böyük mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən bünövrəsi qoyulmuş "Əkinçi" qəzeti Azərbaycan xalqının tarixində yeni bir dövrün - mətbuat dövrünün başlanğıc nöqtəsi oldu. "Əkinçi" qəzeti təkcə Azərbaycan mətbuatının yaranma tarixi deyil, milli özünüdərkin, milli şüurumuzun oyanmasının, azadlıq mücadiləmizin, mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin, milli əqidəmizin oyanışının, nadanlıq və cəhalətə qarşı mübarizə tariximizin dəyərli, önəmli, şanlı, canlı səhifəsidir.**

Milli mətbuatımız tarixə "Əkinçi" qəzeti ilə qədəm qoyub. Böyük Azərbaycan ziyalısı Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşrə başlayan "Əkinçi" qəzetinin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının yaranmasında və təşəkkül tapmasında əvəzsiz rolu olub. Qəzet xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyük əhəmiyyət daşıyıb. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşıb. Təsadüfi deyil ki, dövrünün görkəmli ziyalıları və qələm sahibləri qəzetlə əməkdaşlıq edib, müntəzəm məqalələrlə çıxış ediblər.

"Əkinçi" qəzetinin fəaliyyət göstərməsində həmin dövrün görkəmli ziyalılarının, xüsusilə də Mirzə Fətəli Axundzadənin, Seyid Əzim Şirvaninin, Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin və başqalarının əvəzsiz xidmətləri olmuşdur. Bu tanınmış söz, qələm sahibləri öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, həm ictimai, həm siyasi, həm də bədii fikrin inkişafına böyük təsir göstərə bilmişlər.

Zaman və fəaliyyət etibarilə qısa bir ömür yaşamış "Əkinçi" qəzeti xalqın ictimai-siyasi həyatında, mənəvi tərəqqisində parlaq, silinməz izlər buraxıb. Bu qəzet dövrünün mütərəqqi fikirli ziyalılarını, maarifçi gənclərini öz ətrafında birləşdirən böyük bir mətbu mərkəzi olmaqla Azərbaycan mətbuatının yaranmasına, formalaşmasına və inkişafına, cəmiyyətin maarifləndirilməsinə yol açıb və bu yola öz nurunu, işığını saçıb.

Azərbaycan mətbuatının ilk müjdəçisi "Əkinçi"dən sonra bu sahədə xeyli irəliləyişlər müşahidə edilib. XIX əsrin sonlarında "Ziya" (1879), "Kəşkül" (1880), "Kaspi" (80-90-cı illər) qəzetləri nəşrə başlayıb. XX əsrin əvvəllərində isə, C.Məmmədquluzadə, M.Şahtaxtinski, S.Hüseyn, Ö.Faiq Nemanzadə, Ü.Hacıbəyli və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparıblar. Bu gərgin mübarizə nəticəsində "Molla Nəsrəddin" (1906), "Şərqi-rus" (1903), "Həyat" (1905), "Açıq söz" (1915), "Azərbaycan" (1918) kimi demokratik ruhlu, milli qayəli qəzetlər nəşrə başlayıb.

"Əkinçi" qəzetinin başlıca ideya yolunu və ənənələrini davam etdirən bu mətbu orqanları Azərbaycan Xalq Cümhuriyyətinin əsas ideoloji bazası, azadlıq ideyalarının inkişaf etdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi prosesinin ən fəal iştirakçıları olmuşlar.

Azərbaycan mətbuatı öz ənənələrini mövcud olan ictimai quruluşlar vaxtında qoruyub saxlaya bilib. Sovet hakimiyyəti dövründə kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, Azərbaycan mətbuatı milli varlığını qoruyub saxlaya bilib, respublikanın ictimai-siyasi həyatında fəal şəkildə təmsil olunub. Bu dövrdə ölkədə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın çeşidli növləri meydana çıxmışdır.

"Əkinçi" qəzetinin prinsiplərini xalqımızın Ümummilli Lideri Heydər Əliyev belə qiymətləndirmişdir: "Milli demokratik mətbuatın "Əkinçi" tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı".

"Əkinçi" qəzetinin nəşrə başladığı gün - 22 iyul ölkəmizdə Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur.

İyirminci yüzilliyin sonlarında Azərbaycan öz istiqlalına, dövlət müstəqilliyinə qovuşduqdan sonra milli mətbuatımız özünün əsl inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan mətbuatının inkişafındakı yeni mərhələ Ümummilli Lider Heydər Əliyevin ölməz adı və əvəzsiz xidmətləri ilə bağlıdır. Ulu Öndərimiz ikinci dəfə respublikaya siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda milli mətbuatın formalaşması və inkişafı prosesinə böyük töhfələr verdi. Ölkəmizdə mətbuatın azad fəaliyyəti və tərəqqisi yolunda qarşıya çıxan maneələrin aradan qaldırılması, onun qanunvericilik bazasının təkmilləşdirilməsi, mətbu orqanlarının maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində, eləcə də söz, mətbuat, məlumat azadlığının təmin edilməsi ilə bağlı mühüm əhəmiyyətli tədbirlər həyata keçirildi.

Milli mətbuatın inkişafına dəstək dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə mətbuatın davamlı inkişafı təmin olunur. Bu gün ölkədə 5 mindən çox media subyekti var. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Bütün dünyada gedən qloballaşma prosesi mətbuatdan da yan ötməyib. Bu gün yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan ixtisasartırma və təkmilləşmə kurslarında iştirak edirlər. Vaxtilə Azərbaycanda Mətbuat Şurasının formalaşması media sahəsində pərakəndəliyi aradan qaldırmağa imkan verib, 2003-cü il martın 15-də Azərbaycan Jurnalistlərinin Birinci Qurultayında qəbul edilmiş Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları isə media qurumları arasında problemlərin həllinə müsbət təsir göstərib.

***(Davamı səhifə 7-də)***

# Xızıda "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda tədbir keçirilib

***"1969-cu ildən respublikaya siyasi rəhbərliyə gələn görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev həyat və fəaliyyətini Azərbaycanın elminin, mədəniyyətinin, incəsənətinin, təhsilinin, sənayesinin, kənd təsərrüfatının inkişafına, iqtisadiyyatının güclənməsinə, müstəqil dövlətçilik ənənələrinin bərpasına və möhkəmlənməsinə həsr edib".***

**"İnsan üçün öz xalqına xidmət etməkdən, xalqa xeyir verməkdən, onun hörmət və məhəbbətini qazanmaqdan böyük xoşbəxtlik ola bilməz. Biz hamımız bütün bunları Ümummilli Liderimiz Heydər Əliyevdən öyrənməli, ona oxşamağa çalışmalıyıq."**

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**





Bu fikirlər iyulun 14-də Xızı şəhərində Heydər Əliyev Mərkəzinin konfrans zalında "Heydər Əliyev İli" çərçivəsində "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda keçirilən tədbirdə səsləndirilib.

Xızı Rayon İcra Hakimiyyətinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə Xızı RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, ziyalılar, mədəniyyət işçiləri, gənclər iştirak ediblər.

Giriş sözü ilə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov qeyd edib ki, 1969-cu ilin 14 iyul günü Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə seçildiyi gün kimi tarixə düşüb. Milli inkişafımızın, milli özünüdərkin, mədəni-mənəvi yüksəlişimizin işıqlı sabahını müəyyənləşdirən bu hadisə tariximizin ən dəyərli anını reallaşdırıb. Həmin andan başlayaraq, sonralar bütün türk dünyasının fəxrinə çevriləcək möhkəm əqidəli, polad iradəli, şanlı Azərbaycan oğlunun sarsılmaz ideyalar əhatəsindəki böyük erasının bünövrəsi qoyuldu.

A.Hüseynov öz çıxışında Ulu Öndərin müstəqilliyimizin əldə olunması və qorunub saxlanaraq inkişaf etdirilməsi istiqamətində yorulmaz fəaliyyətindən, uzaqgörən və müdrik siyasətindən və bu siyasi kursun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsindən söhbət açıb.

Digər çıxışlarda bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və tərəqqisinə həsr edən Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən, respublikaya rəhbərlik etdiyi birinci və ikinci dövrlərdə həyatın bütün sahələrində aparılmış köklü islahatlar və dəyişikliklərdən geniş bəhs edilib.

Sonda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

***"XIZI", R.M.***
*14 iyul 2023-cü il*

# Təhsilverənlərin sertifikatlaşdırılmasının test imtahanı mərhələsi keçirilib



**İyunun 20-dən 24-dək respublikamızda müəllimlərin sertifikatlaşdırılmasının test imtahanı mərhələsi keçirilib. İmtahanlar ölkənin 13 müxtəlif şəhəri üzrə 23 mərkəzdə təşkil olunub. Bu mərhələyə 20 minə yaxın ibtidai sinif, 8500-dən çox Azərbaycan dili və ədəbiyyat müəllimi cəlb edilib.**

Abşeron-Xızı Regional Təhsil İdarəsi üzrə sertifikatlaşdırma imtahanları 1 mərkəzdə təşkil olunub. Sumqayıt şəhərində keçirilən imtahanlarda Sumqayıt, Abşeron və Xızı rayonlarının ümumtəhsil müəssisələrində çalışan ibtidai sinif, eləcə də Azərbaycan dili və ədəbiyyat müəllimləri iştirak ediblər.

Test imtahanı mərhələsini uğurla başa vuran müəllimlər sertifikatlaşdirmanın müsahibə mərhələsində iştirak etmək hüququ qazanıblar.

Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva Sumqayıt şəhərində keçirilən təhsilverənlərin sertifikatlaşdırılmasının test imtahanı mərhələsinin gedişatını diqqətlə izləmiş, uğurlu nəticələr əldə etmiş müəllimləri təbrik etmişdir.

***"XIZI", R.M.***
*24 iyun 2023-cü il*

# "N" saylı hərbi hissədə "Yaşa, Azərbaycan!" adlı tədbir keçirilib

**26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü və müqəddəs Qurban bayramı münasibətilə Sumqayıt Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyi Xızı rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə "Yaşa, Azərbaycan!" adlı ədəbi-bədii musiqili tədbir təşkil edib.**

Tədbirdə Xızı Rayon Uşaq Musiqi Məktəbinin müəllimlərindən ibarət "Xızı dağları" ansamblının müşayiətilə mədəniyyət və incəsənət ustalarının ifasında ədəbi-bədii kompozisiyalar, mahnılar səsləndirilib. Musiqi sədaları altında əsgərlərin rəqsi zövqverici mənzərə yaradıb, hər kəsi sevindirib və ruhlandırıb. Tədbirdəki hər bir ifa alqışlarla qarşılanıb.

***"XIZI", R.M.***





# Azərbaycan Milli Mətbuatı 148 yaşını qeyd edir

*(Əvvəli səhifə 5-də)*

**Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması dövlət başçısının diqqət mərkəzindədir. KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar mətbuata və mətbuat işçilərinə qayğının göstəricisidir. Dövlət başçısının Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair sərəncamları əsasında yaşayış binaları tikilib jurnalistlərin istifadəsinə verilmişdir. Eyni zamanda, Mətbuat Şurası üçün yeni binanın ayrılması və onun müasir avadanlıqla təmin edilməsi ölkəmizdə azad mətbuatın inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmasının sübutudur.**

Mətbuatın inkişafı siyasi prioritetdir. Ötən əsrin 80-ci illərindən başlayaraq milli mətbuat azad və demokratik mətbuat missiyasının, insanların düşüncə və sözlərinə hörmətin, yeniləşən informasiya vasitəsilə operativ məlumatlandırmanın, plüralizm və tolerantlıq ideyalarının daşıyıcısı olub. Bu gün tez-tez "dördüncü hakimiyyət" adlandırılan mətbuat Azərbaycanda bir çox proseslərin şəffaflığına və hakimiyyətin üç "klassik" qolunun (icra, qanunverici, məhkəmə) fəaliyyətinin yaxşılaşdırılmasına səbəb olur. Azərbaycanda insan hüquqları, siyasi plüralizm, vətəndaş cəmiyyətinin mövcudluğu demokratik institut kimi formalaşdırılmış müstəqil kütləvi informasiya vasitələrinin fəaliyyətində, onların inkişafı üçün yaradılan hüquqi təminatlarda öz təsdiqini tapır.

Ölkə rəhbərliyinə təqdim olunan "Jurnalistlərin dostu" mükafatları Azərbaycan iqtidarının mətbuata açıq olmasının, eləcə də bu sahənin inkişafına ayrılan yüksək diqqətin təcəssümüdür. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev bütün dövrlərdə mətbuatın inkişafına prinsipial diqqət ayırmışlar. Mətbuat işçiləri ilə mütəmadi təşkil olunan görüşlər, habelə institusional təşəbbüslər mətbuatın davamlı inkişafına səbəb olmuşdur. Milli mətbuatın inkişafına göstərilən dəstəyə görə Ulu Öndər Heydər Əliyev 2002-ci ildə, Prezident İlham Əliyev 2010, 2013, 2017 və 2018-ci illərdə "Ruh" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən təsis olunmuş "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşlər.

Mətbuat işçiləri fədakarlıq və qəhrəmanlıq rəmzinə çevriliblər. 44 günlük Vətən müharibəsində və müharibədən sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolu və jurnalistlərin fəaliyyəti əvəzolunmaz idi. Məhz nümayiş olunan peşəkarlıq, fədakarlıq və çeviklik sayəsində dünya ictimaiyyətinə müharibə ilə əlaqədar, o cümlədən rəsmi İrəvanın törətdiyi hərbi cinayətlər haqqında dolğun məlumatların çatdırılması mümkün oldu. Öz peşə vəzifələrinin icrası zamanı Kəlbəcər rayonu ərazisində iki jurnalistin minaya düşərək həlak olması faktı isə beynəlxalq jurnalistlər birliyinin sərt reaksiyasına səbəb olmuşdur. Bu günə qədər fasiləsiz davam edən informasiya müharibəsində mətbuat işçiləri öz peşəkarlığı və vətənpərvərliyi ilə daim fərqlənmişlər.

Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü funksiyasını yerinə yetirib. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Bu fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, onların rasionallığının artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətlərini müəyyən edib.

Vergi güzəştlərinin tətbiq olunması bilavasitə dövlət qayğısının təzahürüdür. Müxtəlif dövrlərdə ölkə rəhbərliyinin təşəbbüsü ilə çap mediasının vergidən azad edilməsi, eləcə də qəzetlərin, jurnalların nəşriyyata olan borclarının silinməsi haqqında qəbul olunan qərarlar ölkədə mətbuatın inkişafına dair göstərilən dəstəyin daha bir təzahürüdür. Burada Mətbuat Şurası tərəfindən qəzet və jurnalların Şuraya olan borclarının silinməsi faktları qeyd olunmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə yaradılmış Medianın İnkişafı Agentliyi ölkəmizdə çap və onlayn medianın inkişafı, media orqanlarının maliyyə müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, mütərəqqi layihələrin davamlı dəstəklənməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

Prezident İham Əliyev "Bu gün mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiə edilməsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamalıdır" deməklə hal-hazırkı həyat reallıqları şəraitində mətbuatın üzərinə düşən tarixi vəzifələri müəyyənləşdirmişdir.

Müasir dövr milli mətbuatımızın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsini labüd edir. Qanunvericilik müstəvisində mətbuatın inkişafına verilmiş ən böyük töhfələrdən biri 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması olmuşdur. Hazırda media məkanında sürətli qloballaşma prosesi gedir, mətbuatın bütün sahələrdə funksionallığı sürətlə artır. Qabaqcıl texnologiyalar media sektoruna daxil olduqca yeni trendlər meydana gəlir. Bu gün jurnalistlərin, milli mediamızın qarşısında cəmiyyəti daha obyektiv, daha peşəkar şəkildə məlumatlandırmaq missiyası durur. Bu baxımdan mövcud qanunvericiliyin təkmilləşdirilməsi zamanın qarşısıalınmaz tələbidir. Bununla əlaqədar, Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə media haqqında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü iş aparılır.

***R.Məmmədov, "XIZI"***

# Malyariya xəstəliyi, əlamətləri və profilaktikası

**Malyariya ölümcül qlobal xəstəliklərdən biridir. Malyariya parazitləri insanın qanına düşdükdə dövr edərək qaraciyərə düşürlər, onun hüceyrələrinə nüfuz edirlər və orada böyüyərək çoxalırlar. Sonradan parazitlər qaraciyəri tərk edərək eritrositlərə daxil olurlar. Bu proses bir həftədən bir neçə aya kimi çəkə bilər. Parazitlər qaraciyərdə olduqda insan heç bir narahatlıq hiss etmir.**

Eritrositlərə daxil olan parazitlər öz inkişafını davam etdirir və çoxalırlar. Eritrositlərin qılafı partladıqdan sonra onlar digər eritrositlərə daxil olmağa imkan əldə edirlər. Bu cür halda parazitlər toksinlər(zəhərlər) ifraz edirlər. Qan dövranına düşəndə parazitlər digər orqanlara, o cümlədən beyinə də xətər yetirə bilər ki, bunun da səbəbi ağır infeksiyaya məruz qalmış eritrosit laxtalarının qanın kapillyarlarda hərəkətinə maneçilik törətməsidir. Belə olduqda bədən toxumaları zəifləyir. Bu mərhələyə çatdıqda insan artıq halsızlıq və zəiflik hiss etməyə başlayır.

***Malyariya xəstəliyinin əlamətləri***

Malyariyanın simptomlarının sırasına yüksək qızdırmanı, üşütməni, baş ağrılarını, əzələ ağrılarını və yorğunluğu aid etmək olar. Eyni zamanda, ürək bulanması, qusma və ishal da müşahidə oluna bilir. Eritrositlərin parçalanması səbəbindən malyariya anemiyanın yaranmasına və eləcə də ödün dağılması-na(dəri və gözlərin saralması) gətirib çıxara bilər.

Malyariyanın parazitlərinin ən təhlükəli növü olan Plasmodium falciparum tərəfindən törədilən xəstəlik zamanı böyrək çatışmazlığı, epileptik qıcolmalar, əqli pozğunluqlar, koma və vaxtında müvafiq tibbi köməyin göstərilmədiyi təqdirdə ölüm baş verə bilər.

Əksər hallarda simptomlar özünü yoluxmadan sonra 10 gün - 4 həftə ərzində büruzə verir, lakin insan halsızlıq və zəifliyi həm 8 gündən sonra, həm də bir ildən sonra hiss edə bilər. Malyariyanın iki növü - Plasmodium vivax və Plasmodium ovale residivlərin ortaya çıxmasına səbəb ola bilər. Malyariya parazitlərinin bəziləri insanın qaraciyərində bir neçə aydan başlayaraq 3 ilə kimi qala bilərlər. Bu parazitlər passiv haldan çıxaraq eritrositlərə daxil olmağa başladığı vaxtdan insanda xəstəlik halı üzə çıxmağa başlayır.

Malyariya parazitləri bir xəstə insandan sağlam insana, adətən, Anopheles cinsindən olan ağcaqanadların vasitəsi ilə ötürülür. Ağcaqanadı yoluxduran parazitin forması qametosit adlanır. Qametositlər merozoitləri qana daxil olduqdan sonra infeksiyaya yoluxmuş insanların daxili orqanlarının kapillyarlarında inkişaf etməyə başlayırlar.

Ağcaqanadlar üçün yoluxucu olan yetkin qametositlər periferik qanda təqribən 3 (Plasmodium vivax olduqda) və 10 gündən sonra (Plasmodium falciparum və Plasmodium malariae olduqda) peyda olmağa başlayırlar. Anopheles cinsindən olan ağcaqanadın dişisi infeksiyaya yoluxmuş insanı sancdıqda, onun qanını sorarkən qan ilə birlikdə malyariya qametositlərini də udur.

Bu təqdirdə, malyariya paraziti ağcaqanadın orqanizmində bir müddət qalaraq inkişaf etməlidir və yalnız bundan sonra o özü digər insanları yoluxdura bilər. Bu cür müddətin sürəkliliyi(sporogenik dövr) Plasmodiumun növündən və eləcə də ətraf mühitin temperaturundan asılıdır. Afrika regionları kimi həddən artıq endemik olan bölgələrdə malyariya xəstəliyinə bir neçə dəfə düçar olmuş insanlarda həmin xəstəliyə qarşı kliniki simptomların əksər hissəsini yatırdan müəyyən immunitet yaranır. Bu cür insanlar öz orqanizmlərində sancma zamanı ağcaqanadların yoluxduran qametositləri daşıya bilərlər. İmmuniteti olmayan insanlarda kliniki simptomlar bir qayda olaraq qametositlər periferik qanda peyda olana kimi inkişaf edir. Əgər istənilən şəxs malyariyaya yoluxubsa və onda kliniki simptomların ortaya çıxmasından öncə, lakin merozoitlərin qaraciyərdən qan dövranına



daxil olduqdan sonra həmin şəxs qan donoru kimi çıxış edirsə, belə olan halda, həmin insanlar özlərindən xəbərsiz verdikləri qanları ilə infeksiyanı digərlərinə ötürə bilərlər.

Kliniki simptomları olmayan qismi immunitetə malik olan insanların verdikləri donor qanında da malyariya parazitləri ola bilər. Buna bənzər şəkildə, malyariya həmçinin yoluxmuş iynə və şprislərin vasitəsi ilə də ötürülə bilər.

Plasmodium vivax və Plasmodium ovale vasitəsi ilə baş vermiş infeksiyalar zamanı xəstə praktiki olaraq simptomların özünü büruzə verməsindən dərhal sonra infeksiyanı ağcaqanadda ötürə bilər. Plasmodium falciparum ilə yoluxma zamanı isə infeksiyanın ağcaqanada ötürülməsi yalnız bir neçə gün keçdikdən sonra, yəni yetkin qametositlərin periferik qanda peyda olmağa başladıqları zaman baş verə bilər.

Malyariya ilə xəstələnmiş, lakin sonradan tamamilə sağalmış adam onu digərlərinə ötürə bilər. Bu təqdirdə həmin insanlar malyariya xəstəliyinin simptomlarını aşkar etməyən daşıyıcılar şəklində həmin xəstəliyi digərlərinə ötürə bilər. Belə şəxslərə parazitgəzdiricilər deyirlər. Tropik malyariyaya qarşı immunitet əldə etmiş insanlarda və yaxud da Plasmodium vivax və ya Plasmodium ovale ilə ilk dəfə xəstələnərək sağalmış insanlarda sonralar xəstəliyin qayıtması hallarının baş verməsinə dair bir çox misal göstərmək olar.

Malyariya infeksiyalarının müalicəsində istifadə olunan xloroxin və mefloxin kimi dərman preparatları qan damarlarında olan Plasmodium falciparumun yetkin qametositlərini məhv etmir. Malyariyanın müalicəsində tətbiq olunan dərman preparatlarının vasitəsi ilə müvəffəqiyyətli müalicə keçmiş insanlar tam olaraq sağlam olduqları halda, orta hesabla təxminən 2 ay müddətində yoluxucu olaraq qalırlar, bu hal qametositlərin təbii ölümlə ölməsi anına kimi və yaxud da insanın qametositləri doğrudan da məhv etməyə qadir olan Primaxin kimi dərman vasitəsindən istifadə etməsinə kimi davam edir.

***Malyariyanın profilaktikası***

Profilaktika malyariyaya qarşı olan vasitələrin istifadəsi ilə xəstəliyin qarşısının alınmasına yönəlmiş tədbirlərdir. Lakin tam qorunmanı təmin edə bilmir və malyariya keçiriciləri olan ağcaqanadların sancması riskinə məruz qala bilən insanlar üçün məsələnin tamamilə səmərəli və eləcə də uzunmüddətli həll üsulu sayıla bilməz. Malyariyanın profilaktikası üçün aşağıdakı üsullar mövcuddur:

**1. İnsanların ağcaqanad sancmasından qorunması:**

*- Əgər bu, mümkündürsə əsas etibarı ilə ağcaqanadların fəal olduğu qaranlığın düşdüyü andan günəşin çıxmasına kimi olan müd dət ərzində evdən çölə çıxmaq olmaz;*

*- Evin bütün pəncərə və qapıları, ən azından yataq otaqlarında olan pəncərə və qapılar tor ilə örtülü olmalıdır;*

*- Ağcaqanadlara qarşı spreylərdən istifadə edilməli və ya ağcaqanadlar əleyhinə spirallar yandırılmalıdır;*

**2. Ağcaqanadların çoxalmasının nəzarətdə saxlanılması:**

*- Ağcaqanadların yumurta qoya biləcəyi durğun su mənbələrinin (gölməçələrin) ləğv edilməsi;*

*- Ağcaqanad yumurtalarının məhv edilməsi məqsədi ilə suya xüsusi insektisidlərin əlavə edilməsi.*

**3. Ağcaqanadların yetkin fərdlərinin məhv edilməsi:**

*- Yatmazdan qabaq otaqların insektisid tərkibli aerozollarla işlədilməsi;*

*- Müxtəlif səhiyyə strukturları tərəfindən həyata keçirilən tədbirlərdə, o cümlədən evlərin daxili divarlarının ağcaqanadları məhv edən insektisid tərkibli aerozollar vasitəsi ilə emal işlənməsində iştirak etmək;*

*Qeyd olunmuş strategiyaların həyata keçirilməsi məqsədi ilə malyariya parazitlərinin keçiriciləri olan ağcaqanadlar haqqında geniş bilgilərə malik olmaq lazımdır.*

***Ağcaqanad sancmasının qarşısının alınması***

Endemik ərazilərdə malyariya ilə mübarizə üsullarından ən başlıcası ağcaqanad sancmalarının qarşısının alınmasıdır. Sancılma riskinin azaldılması məqsədi ilə aşağıdakı üsulların tətbiqi səmərəlidir:

*(Davamı səhifə 8-də)*

# Malyariya xəstəliyi, əlamətləri və profilaktikası

*(Əvvəli səhifə 7-də)*

Ağcaqanadlara qarşı tor insanın malyariyadan müdafiəsinin çox səmərəli üsuludur. Bu cür torlar ağcaqanadları məhv etmir, lakin siz onun altında olduğunuz müddətdə ağcaqanad sizi sanca bilmir. Malyariya ağcaqanadları, adətən, insanları günəşin batmasından günün çıxmasına kimi davam edən zaman müddəti ərzində sancırlar. Bu səbəbdən ağcaqanadlara qarşı torlar, qaranlığın düşməsi ilə artıq yuxulayan kiçikyaşlı uşaqlar üçün çox faydalıdır. Bundan əlavə, torlar həmçinin daha böyük yaşlı uşaqların və böyüklərin müdafiəsi üçün də faydalıdır, çünki bəzi ağcaqanadlar yalnız gecə vaxtı sancırlar. Məhz bu səbəbdən ağcaqanadlara qarşı torların istifadəsi faydalıdır. Uşaqlar və hamilə qadınlar ağcaqanadlara qarşı torlardan istifadə edərək yatmağa tez getdikləri zaman axşamlar ağcaqanadların sancmalarından qurtulmuş olurlar. Ağcaqanadlardan müdafiə edən torların altında yatan uşaqlar, adətən malyariya xəstəliyinə bu cür torlardan istifadə etməyən uşaqlara nisbətən daha az düçar olurlar.

Düzgün istifadə edilmədikdə ağcaqanadlara qarşı tətbiq olunan torlar malyariyaya yoluxmanın qarşısını ala bilmir.

***Ağcaqanadların artmasına nəzarət***

*Malyariya ağcaqanadları aşağıda sadalanan yerlərdə çoxala bilirlər:*

*Şirin və yaxud da azca şor olan sularda, sahilə yaxın su axını surətinin çox az olduğu açıq nohurlarda;*

*- Yağışların kəsilməsi nəticəsində çay yataqlarında qalan, və yaxud da su ehtiyatlarının qeyri-səmərəli istifadəsi nəticəsində yaranan gölməçələrdə;*

*- Bataqlıqlarda, çəltik tarlalarında və su anbarlarında;*

*- Yaşayış yerlərinin yaxınlığında olan kiçik gölməçələrdə, nohurlarda, çalalarda, çuxurlarda, kanallarda və içərisində durğun suların olduğu arxlarda;*

*- İçərisi su ilə dolmuş dırnaqlı heyvanların ləpirlərində;*

*- Su çənlərində;*

**Yadda saxlayın ki, sizi sancan ağcaqanadlar bir qayda olaraq sizin yaşadığınız ərazidə və ya 2-3 kilometr (1.25 mil) uzaqlıqda çoxalırlar. Siz və ictimaiyyətinizin digər üzvləri ağcaqanadların çoxalma tempini aşağıda təsvir edilmiş tədbirləri həyata keçirərək aşağı sala bilərsiniz:**

*- Yaşayış yerlərinin yaxınlığındakı nohurlar, gölməçələr, çuxurlar və eləcə də heyvan ləpirləri torpaqdan, qumdan və.s istifadə edilərək doldurulmalıdır.*

*- İçərisində su yığılıb qala bilən tutumlu qablar ortadan götürülməlidir.*

*- Suçənləri (su toplayıcıları) ağcaqanadlardan qoruyan xüsusi torlar və ya qapaqlar vasitəsi ilə bağlanılmalıdır.*

*- Su hövzələrinin sahillərində olan bitkilər təmizlənməlidir, bu suyun axın sürətini tezləşdirəcək.*

*- Gölməçələr su kranlarının, su xətlərinin, quyuların və çirkab su boru xətlərinin sızması nəticəsində əmələ gəlir. Bu cür əmələ gəlmiş nohurları su təchizatı sisteminin təmiri və təkmilləşdirilməsi, yaxud da onların qurudulması yolu ilə aradan qaldırmaq mümkündür.*

Yadda saxlamaq lazımdır ki, malyariyanı nəzarət altında yalnız o halda saxlamaq mümkündür ki, görülən işlər və həyata keçirilən tədbirlər qüvvələrin birgə səfərbər edilməsi ilə icra olunsun. İctimai həyat elə qurulmalıdır ki, ictimaiyyətin hər bir fərdi malyariyanın nəzarətdə saxlanılmasına dair tədbirlərin görülməsi zamanı öz iştirakını əsirgəməsin.

**Həyati əhəmiyyətli faktlar:**

Malyariya haqda hər bir ailə və eləcə də hər bir cəmiyyət nələri bilməlidir? Malyariya xəstəliyi anofeles ağcaqanadının sancması ilə yayılan ağır transmissiv xəstəlikdir. Bütün dünyada il ərzində qeyd olunan malyariya xəstəliyinə yoluxma hallarının sayı 500 milyona çatır və təxminən 1 milyona qədər uşaq bu xəstəlikdən vəfat edir. Malyariyanın geniş yayıldığı regionlarda, xəstəlik azyaşlı uşaqlar arasında ölüm hallarının və eləcə də inkişafın ləngiməsinin baş verməsinin başlıca səbəbi ola bilər.



Bundan savayı, malyariya hamilə qadınlar üçün xüsusi təhlükə kəsb edir. O, anemiyanın ağır formasının ortaya çıxmasının, uşaq salmanın, ölü dölün doğulmasının, təzə doğulmuş körpələrdə çəkinin qeyri-kafi olmasının və eləcə də doğum zamanı qadınlar arasında ölüm hallarının baş verməsinin səbəbidir. Malyariyanın profilaktikası və onun ilkin müalicəsi bir çox həyatı xilas edə bilər.

**Önəmli faktlar:**

*1. Malyariya xəstəliyi anofelos ağcaqanadının sancması nəticəsində ötürülür. Ağcaqanad sancmasından ən yaxşı müdafiə üsulu, yatarkən tövsiyə edilmiş insektisid hopdurulmuş ağcaqanadlardan qoruyan xüsusi tordan istifadə etməkdir.*

*2. Malyariya xəstəliyinin yayıldığı yerlərdə uşaqlar həmin xəstəliyə yoluxma riskinə məruz qalır. Qızdırmadan əziyyət çəkən uşaq dərhal təcrübəli tibb işçisi tərəfindən müayinə edilməli və tez bir zaman ərzində müvafiq müalicə kursu keçməlidir.*

*3. Malyariya hamilə qadınlar üçün həddən artıq təhlükəlidir. Malyariya xəstəliyinin yayıldığı ərazilərdə qadınlar tibb işçisi tərəfindən tövsiyə olunmuş malyariyaya qarşı olan həbləri qəbul etməklə malyariyanın qarşısını ala bilərlər.*

*4. Malyariyadan əziyyət çəkən uşaqlara və eləcə də müalicə keçən şəxslərə bol qida və su vermək tələb olunur.*

*5. Ailələr və ictimaiyyət ağcaqanadların çoxalmasına maneçilik edərək malyariyanın qarşısını ala bilərlər.*

**Əlavə məlumat:**

**1.** *Malyariya xəstəliyi anofelos ağcaqanadının sancması nəticəsində ötürülür.*

Ağcaqanad sancmasından ən yaxşı müdafiə üsulu yatarkən tövsiyə edilmiş insektisid hopturulmuş ağcaqanadlardan qoruyan xüsusi tordan istifadə etməkdir. İctimaiyyətin bütün üzvləri ağcaqanad sancmasından müdafiə olunmalıdırlar, kiçik yaşlı uşaqlar və eləcə də hamilə qadınlar üçün bu cür müdafiə daha böyük əhəmiyyət kəsb edir. Müdafiəolunma ağcaqanadların xüsusilə aktiv olduqları günəşin batması və günün çıxması arasındakı zaman müddətində daha səmərəli təmin olunmalıdır.

Tövsiyə edilən insektisidlər hopdurulmuş ağcaqanadlardan qoruyan torlar, pərdələr və eləcə də həsirlər onların üzərinə qonan ağcaqanadları məhv edir. Daimi olaraq insektisidlə hopturulmuş pərdə, tor və həsirlərdən istifadə etmək tövsiyə olunur. Adətən, torların təkrar hopdurulması altı aydan bir, eləcə də hər üçüncü yuyulmadan sonra aparılmalıdır.

Təcrübəli tibb işçiləri sizə təhlükəsiz insektisidlər və eləcə də onların təkrar hopdurulması qrafiki haqda dolğun məlumat təqdim edə bilərlər. Körpələr və azyaşlı uşaqlar insektisidlə emal olunmuş ağcaqanadlardan qoruyan xüsusi torlar altında yatmalıdırlar. Bu cür torların bahalı olduqları təqdirdə ailə ən azından bir böyük tor əldə etməlidir və ailədə olan bütün azyaşlı uşaqlar onun altında yata bilərlər.

Südəmər körpələr torların altında öz anaları ilə birgə yatmalıdır. Üzərinə insektisid hopdurulmuş ağcaqanadlardan qoruyan xüsusi torlardan il boyu, hətta ağcaqanadların nisbətən az olduqları dövrlərdə belə istifadə olunmalıdır. Ağcaqanadlardan qoruyan xüsusi torların olmadığı təqdirdə köməyinizə digər tədbirin görülməsi gələ bilər:

*- Pəncərə və qapılardan üzərinə tövsiyə olunmuş insektisid hopdurulmuş pərdə, parça və yaxud da həsirləri asmaq olar;*



*- Ağcaqanadlara qarşı spirallardan və yaxud da digər fumiqantlardan istifadə etmək olar;*

*- Qaranlıq düşdükdə əl və ayaqları örtən paltarlar geyilə bilər (uzun qollu köynəklər və uzun ətəkli şalvar və ya yubkalar). Uşaqlar və eləcə də hamilə qadınlar üçün bu xüsusi əhəmiyyət kəsb edir;*

**2.** *Malyariyanın geniş yayıldığı ərazilərdə uşaqlar yoluxma təhlükəsinə məruz qalırlar.*

Qızdırmadan əziyyət çəkən uşaq dərhal tibb işçisi tərəfindən müayinə edilməli və ona tez bir zaman ərzində malyariya xəstəliyinə qarşı müvafiq müalicə təyin edilməlidir.

Ailə üzvləri arasında və özəlliklə azyaşlı uşaqlarda qidadan imtina, qusma, süstlük və yaxud da ürpəşmələr müşahidə olunduğu təqdirdə, malyariya xəstəliyi təxmin oluna bilər. Malyariya tərəfindən törədilməsi güman olunan qızdırmadan əziyyət çəkən uşaqlar dərhal tibb işçisi tərəfindən tövsiyə edilmiş malyariya müalicəsindən keçməlidir. Malyariya qızdırması olan uşaqlar gün ərzində müalicə olunmadıqları təqdirdə bu cür hallar ölüm ilə nəticələnə bilər. Tibb işçisi xəstələnmiş şəxslərə müalicənin optimal üsulu və eləcə də onun davamiyyəti haqqında məsləhət verməlidir.

Qızdırmanın tez bir zamanda keçib getməsinə baxmayaraq, malyariya xəstəliyindən əziyyət çəkən uşaq tam müalicə kursu keçməlidir. Bu cür müalicənin tamamlanmadığı təqdirdə, malyariya xəstəliyi daha ağır forma ala bilər və sonradan onun müalicəsi həddən artıq çətin olacaqdır. Əgər müalicədən sonra malyariya simptomları yenə də ortaya çıxarsa, uşaq tibbi yardımın göstərilməsi üzrə poliklinikaya və ya xəstəxanaya götürülməlidir.

**Problemin səbəbi aşağıdakılardan biri ola bilər:**

*- Uşaq kifayət miqdarda dərman vasitələrini qəbul etmir;*

*- Uşaqda malyariyadan fərqlənən digər xəstəlik vardır;*

*- Malyariya dərman vasitəsinin təsirinə dözümlüdür və digər dərman vasitəsinin istifadə edilməsi zəruridir;*

**Qızdırmadan əziyyət çəkən uşaqlar xəstəliyin keçməsinə kimi soyudulmalıdırlar:**

*- Süngər vasitəsi ilə sürtmə və yaxud da ılıq(soyuq olmayan) suda çimizdirmə;*

*- Uşaq qalın geyindirilməməli və yaxud da onun üstü yalnız bir yorğan ilə örtülməlidir;*

**3.** *Malyariya hamilə qadınlar üçün həddən artıq təhlükəlidir.* Malyariya xəstəliyinin geniş vüsət aldığı bölgələrdə hamilə qadınlar tibb işçisinin tövsiyə etdiyi malyariyaya qarşı həbləri qəbul etməklə onun qarşısını ala bilərlər. Hamilə qadınlar digər qadınlara nisbətən daha çox malyariya təhlükəsinə məruz qalırlar.

Bu xəstəlik hamiləlik dövrü üçün böyük təhlükə kəsb edir, ilk hamiləlik dövründə bu təhlükə daha ciddi xarakter daşıyır. O, anemiyanın (”qanın azalması”) ağır formasının ortaya çıxmasının, uşaq salmanın, ölü dölün doğulmasının, və ya vaxtından əvvəl doğumun baş verməsinin səbəbi ola bilər. Hamiləlik dövrü ərzində malyariya xəstəliyindən əziyyət çəkmiş anaların körpələri, adətən, qeyri-kafi bədən kütləsinə malik olurlar və bu səbəbdən də həyatlarının ilk ili ərzində infeksiyalara və ölümə daha çox məruz qalırlar.

Həkimin məsləhətinə müvafiq olaraq hamilə qadınlar hamiləlik dövrü ərzində malyariyaya qarşı həblərdən istifadə etməlidirlər. Hamiləlik dövrü ərzində bütün həblərin qəbulu da öz növbəsində təhlükəsiz deyil. Tibbi işçiləri hansı növ dərman vasitələrinin daha optimal olmasına dair məsləhət verməlidir.

Ağcaqanad sancmasının qarşısının alınması məqsədi ilə hamilə qadınlar vaxtaşırı olaraq üzərinə insektisid hopdurulan ağcaqanadlardan qoruyan xüsusi torlar altında yatmalıdırlar. Ölüm hallarının qarşısının alınması məqsədi ilə malyariya əlamətləri və simptomları olan hamilə qadınlar lazımi və təxirəsalınmaz müalicə olunmalıdırlar. Malyariya ilə xəstələnmiş hamilə qadınlar həkimdən dəmirin və A vitamininin əlavə şəklində verilməsini sorğu etməlidirlər.

**4.** *Malyariyadan əziyyət çəkən uşaqlara və eləcə də müalicə keçən şəxslərə bol qida və su vermək tələb olunur.* Malyariya enerji sərfi ilə müşayiət edilir, və uşağın orqanizmindən tər ilə birlikdə böyük həcmdə maye xaric olunaraq itirilir. Su itkisi və eləcə də qida çatışmazlığının qarşısının alınması məqsədi ilə uşağa vaxtaşırı olaraq su və yemək təklif etmək lazımdır.

Malyariyadan əziyyət çəkən uşaqları mümkün qədər tez əmizdirmək lazımdır. Malyariya ilə xəstələnmə halları tez-tez baş verdikdə bu uşaqların böyüməsini ləngidir və beyin inkişafına maneçilik törədir, eləcə də əksər hallarda anemiyanın yaranmasına səbəb olur. Bir neçə dəfə malyariya ilə xəstələnmiş uşağı anemiyanın olub-olmamağının yoxlanılması məqsədi ilə müayinədən keçirmək tələb olunur.

**5.** *Ailələr və ictimaiyyət ağcaqanadların çoxalmasına maneçilik edərək malyariyanın qarşısını ala bilərlər.* Ağcaqanadlar durğun suyun mövcud olduğu yerlərdə, məsələn, gölməçələrdə, nohurlarda, bataqlıqlarda, çalalarda, arxlarda və eləcə də yaş otluqlarda və kolluqlarda çoxalırlar. Bundan savayı onlar çaylar boyu və eləcə də içərisində su olan qabların, rezervuarların içərisində və həmçinin çəltik tarlalarında çoxala bilərlər. Ağcaqanadların sayı aşağıdakı üsullarla azaldıla bilər:

*- Su yığılmış ərazilərin qurudulması və ya doldurulması;*

*- Su çənlərinin və qablarının qapaqlarla örtülməsi;*

*- Evlərin ətrafındakı ərazilərin kolluqlardan təmizlənməsi;*

Malyariya bütün ictimaiyyətə təsir göstərir. Ağcaqanadların çoxala biləcəkləri yerlərinin azaldılması və eləcə də ağcaqanadlardan qoruyan torların insektisidlərlə hopdurulması məqsədi ilə hər kəs birgə şəkildə səy göstərməlidir. İctimaiyyət malyariyanın qarşısının alınması və onun nəzarətdə saxlanılması ilə əlaqədar yardımın əldə edilməsi istiqamətində bütün səhiyyə işçilərini və siyasi liderləri kömək göstərməyə dəvət etməlidir.

**Vahab Əliyev,**
*Xızı Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin həkim-gigiyenisti*

## Etibarsız sayılır

Sumqayıt şəhəri, Corat qəsəbə sakini 16 mart 1957-ci il təvəllüdlü Mustafayev Eldar Zeybulla oğlunun adına 03.09.1974-cü il tarixdən (əmr № 323) 09.12.1976-cı il tarixinədək (əmr № 545) işlədiyi Azərbaycan Boru Prokat Zavodu tərəfindən verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

**Qeyd:** Elan Azərbaycan Boru Yayma Zavodunun 18 yanvar 2021-ci il tarixli, 9/A nömrəli "Arxiv arayışı"ndakı məlumatlara istinadən dərc olunub.

Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*




*Qəzet Ədliyyə Nazirliyinldə qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h: 33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 202*
*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*